*Üzeyir Hacıbəyli - 130 illik yubileyi qarşısında*

# ÜZEYİR HACIBƏYLİ: QÜRURUMUZ, ŞÖHRƏTİMİZ

XX əsrin klassik bəstəkarı Üzeyir Hacıbəyli dünyada ilk dəfə Şərq və Avropa müsiqisi arasında sintez yaratmış dahidir. Cüzeppe Verdi İtalyada, Pyotr Çaykovski Rusyada, tibbdə Hipokrat hansı səviyyədədirsə, müsiqi və operada da Üzeyir bəy onlar qədər klassik bir simadır və Şərq dünyasının müsiqi işığıdır.

Üzeyir bəyə qədər milli musiqi ilə çağdaş, Qərb və Avropa müsiqisinin sintezini yaradan başqa bəstəkar olmamışdır. Bir başqa özəl xüsusiyyət isə komediyalarında yaratdığı tiplər, xüsusilədə kişi surətləri bütün Şərq xalqlarının, hətta dünya xalqlarının gündəlik yaşam münasibətlərinə, psixologiyasına, sosial problemlərinə, mənəviyyatlarına, əxlaq dəyərlərinə, estetik ideallarına yaxın olduğundandır ki, onlar da Üzeyir bəyin komediyalarına heyrandırlar. Onun yaradıcılığı hər sənət adamına, eləcə də mənə mənəvi qida verir.

Bu dahi şəxsiyyətin əsərləri ilə məktəb illərindən tanışdım. Ədəbiyyat müəllimimiz Ağamirzə müəllim ünlü bəstəkarın operettalarından parçalar hazırladardı, mən ya Hambalı, ya da Vəlini oynayardım. Daha sonra musiqili komediya aktyorluğu fakültəsində oxuyanda, Soltan Dadaşovla Vəli və Hambal rolunu hazırlayardıq və səhnədə qürurla bu rolları



oynayardım. Əsgər rolunu Arif Babayev oynayardı və diplom tamaşasını Akademik Opera və Balet Teatrının səhnəsində oynamışdıq. Hambal rolunu isə Dövlət Opera Teatrının səhnəsində uzun zaman oynadım. Musiqili Komediya Teatrında işləyəndə yenidən bu rollarda səhnəyə çıxırdım. Onun bütün felyetonlarını, kitablarını və məqalələrini təkrar-təkrar oxuyur, mənən ona bağlanırdım.

Rimski-Korsakov adına Leninqrad (indiki Sankt-Petersburq) dövlət Konservatoriyasının Opera rejissorluğu bölümünə daxil olmaq üçün "Köroğlu" operasının maketini hazırlamışdım. İmtahanda "əla" qiymət verdilər. Birinci kursda ikən Konservatoriyanın Opera Studiyasının foyesində Üzeyir bəyin adını ilk dəfə divarda oxuyanda, daxilində isti bir duyğu məni ecazkarca göylərə yüksəltdi. Bu duyğu sayəsində ikinci kursda aktyorluq sənəti üçün "Arşın mal alan" operasından ikinci pərdəni hazırladığ. Əsgər rolunda bir meksikalı, Gülçöhrə rolunda özbək, mən - azərbaycanlı, Vəli rolunda, Xala rolunda rus, Süleyman rolunda isə qazax tələbələr iştirak etmişdilər. Beynəlmiləl bir aktyor qrupu gözəl də oxudular, rollarını da əla oynadılar.

Mənim səhnə həyatım qədimdəki səyyahlar kimi yollarda: qatarla, uçakla hərəkətdə, başqa-başqa şəhərlərdə, ölkələrdə keçmişdir. Fəqət bu keşməkeşli, zaman zaman da zor şərtlərdə səhnə həyatımın bütün mərtəbələrində Üzeyir bəyin yaradıcılığı mənə güc və qüvvət vermişdir. Yaradıcılığımın hər anını demək olar ki Üzeyir bəyin sənəti ilə yaşamışam. Dünya bəstəkarları C.Verdi, C.Rossini, C.Puççini, A.Borodin, P.Çaykovski, C.Donizetti və daha neçə bəstəkarların operalarını səhnəyə qoyanda da Üzeyir bəyin səhnə sənəti məni ruhən güclənmiş, mənə mənəvi dayaq olmuşdur.

Sənət taleyimdə Yəmən Respublikasında, Ədən şəhərində Milli Dram Teatrını qurmaq mənə qismət imiş; oraya uzunmüddətli ezamiyyətə göndərilmişdim. Ədəndə Dram Teatrını qurmaq çox-çox zor oldu. Şəhər-şəhər dolaşdım, istedadlar axtardım və 60 istedadlı gənci səhnəyə topladım. Gözəl Sənətlər İnstitutunu yaratmaq təklifimi qəbul etdilər. Orada Aktyorluq bölümünü yaratdım. Orada "Məşədi İbad" operasından parçalar hazırlamaya başladım. Yəməndə də bu operanı çox bəyəndilər və mədəniyyət və turizm naziri Rəşit Tabetənin əmri ilə "Məşədi İbad" (ərəbcə "İnkən Mujdi, Bəd Kundi", ya da "Əşşeyh Ubad") operası ilə Milli Dram Teatrının açılışına qərar verildi. Üzeyir bəyin bu möhtəşəm əsəri sayəsində Yəməndə ilk dəfə sinfonik orkestr də qurulmuş oldu.

1982-ci il mart ayının 28-də Yəmən Milli Dram Teatrının pərdələri ilk dəfə xalqın üzünə açıldı. Həmin gün SSRİ-nin Yəməndəki səfiri İqor Fedotovun dəvəti ilə Yəməndəki bütün səfirliklərin diplomatları, dövlət adamları salonu doldurdular. Beləliklə, Yəmən Milli Dram Teatrının ilk tamaşası Üzeyir bəyin ölməz operası ilə açılmış oldu. Bu, bir tarixdir. O gün Yəməndə bayram idi. Qəzetlər, televiziya və radio sadəcə tamaşadan, yaradılan dövlət teatrından söz etdilər, yazdılar. Ədən TV-yə, canlı yayıma dəvət olundum, aktyorlarla, köməkçilərimlə ekrana çıxdıq. Üzeyir bəyin yaradıcılığından danışdım, onun musiqisinin müasirliyindən, əbədiliyindən söz etdim. Üzeyir bəyin musiqisi Ədən dənizindən o taya, okeanı aşaraq Hindistana və bütün Şərq ölkələrinə səs saldı. Üzeyir bəyin musiqisi Şərq ölkələrində də əks-səda etdi. Çünki Üzeyir bəyin musiqisi bütün xalqların ruhuna, mənəviyyatına yaxındır, onlar üçün doğmadır. Çünki onların da çevrəsində Qoçu Əsgər, Rüstəm bəy, Məşədi İbad kimi tiplər vardır. Pul üçün qızlarını yaşlı, zəngin adamlara satmaq Hindistan, Pakistan daxil Afrika və Ərəb ölkələrində bu gün də vardır. Hətta bütün türk dövlətlərində, Avropa ölkələrində də rast gələ bilərik buna, artıq bu, sirr deyil.

...C.Verdinin "Otello" operasını müəllimim Boris Pokrovski ilə Bolşoy Teatrın səhnəsində birlikdə işlədik. Otello rolunu gürcü aktyoru Zurab Sotkilava, Mazuroku isə mən hazırladım. Daha sonra Pucççininin "Toska" operasında Kavaradossi rolunu Sotkilava ilə sevə-sevə işlədim. Bu opera qəhrəmanlarını aktyorlarla işləyərkən, daxilimdə sanki Koroğlu rolundan ilham alırdım. Sanki Üzeyir bəyin musiqisini məşq edirdim.

Bakı operasında əvvəlcə müəllimim və sənət dostum, prof. Mehdi Məmmədov ilə birlikdə (1977), daha sonra 1985-ci ildən 1990-cı ilədək üç dəfə "Leyli və Məcnun" operasını bərpa etmişəm və onlarca muğam ustalarını Məcnun və Leyli rollarına daxil etmişəm. Bunlardan Rübabə Muradova, Alim Qasımov, Arif Babayev, Canəli Əkbərov, Baba Mirzəyev, Səkinə İsmayılova, Nəzakət Məmmədova, Qəndab Quliyeva, Qulu Əsgərov, Mənsum İbrahimov və daha kimlər, kimlərlə işləmişəm...

Bakı Teatr İnstitutunda dərs verdiyim illərdə kurs rəhbəri ikən diplom tamaşası üçün yenidən "Arşın mal alan" üzərində durdum.

Türkiyə hökuməti tərəfindən 1991-ci ilin dekabr ayında Ankara Dövlət Opera və Balet Teatrına dəvət olundum. Burada Mədəniyyət və Turizm naziri Fikri Sağlar məni Mərsin Dövlət Opera və Balet Teatrını qurmaq üçün Baş rejissor təyin etdi. Bədii Şuranın ilk iclasında təklif etdim ki, teatrı "Arşın mal alan" operesı ilə açaq. Dərhal dərslərə başladım. İlk tamaşa üçün nəfis dekor və kostyumlar hazırlandı. Və 1993-cü il yanvarın 3-də Mərsin Dövlət Operası pərdələrini "Arşın mal alan" ilə açdı. Üzeyir sənətinin yeni zəfərlərinə bir yenisi də əlavə olundu. Bu tamaşa hələ də repertuardadır.

Hələ Bilkənd Universitetində aktyorluq, rol, musiqili səhnə, opera rejissorluğundan dərs verdiyim illərdə "Koroğlu" Beynəlxalq Layihəsi üzərində işləyirdim. O zaman mənə fürsət vermədilər. Lakin sakitləşmədim, layihə üzərində israrla işləməyə davam etdim. Dövlətdən dəstək alıb, TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun yanına getdim, "Mən dövlətdən "dəstək" sözünü aldım, siz sadəcə təşkilati məsələləri üzərinizə alın", - dedim. - Türk dövlətlərindən istedadlı vokalçılarla anlaşmalarım var. Siz təşkilati məsələlərlə, mən isə səhnə üzərindəki sənət məsələlərini həll edərəm". O diqqətlə qulaq asdı və dedi: "Hocam, bu layihə üçün əlimdən gələn hər şeyi edəcəyəm". Əvvəl Abay Operasının müdiri ilə saziş imzaladıq. Sonra Düsen bəy Bişkek Moldobayev operasını seçdi və mənə, "Qədim İpək Yolu üzərindən başlasaq daha məntiqli olar", - dedi. Razılaşdım və rəssam-dekorator Savaş Camgöz, asistent Oğuz Baydoğan ilə Bişkekə yola düşdük. Sankt-Peterburq Marinsk Operasından Əhməd Agadi (atası azərbaycanlı olduğunu söylədi mənə), Bakıdan Həsən İnami və Bişkek Maldıbayev Operasından Sadr Jumaşov Koroğlu rolunu, Qazaxıstandan Abay Operasından tanınmış soprano Gülzat Daurbayeva, Bakı operasından Zemfira İsmayılova, Ankara Operasından Şülə Gökən, Başqırdıstan Operasından Albina Gabidullina, Bişkek Operasından Baktğül Bokoyeva Nigar rolunda yüksək istedadları ilə parladılar. Başqa rollarda da türk dövlətlərindən solistlər, xor artistləri və balet sənətçilərini dəvət etmişdik. Tamaşanın musiqi rəhbəri kimi, dünyada tanınmış dirijor, Xalq artisti, professor Rauf Abdullayevi dəvət etmişdim. Baş xormeyster Gülnarə Kərimova, Türkiyədən Mehmet Volkan isə baş xoreoqraf dəvət olunmuşdu. Bu layihə türk dövlətlərinin bayramına çevrilmişdi. Üzeyir bəyin şah əsəri "Koroğlu" operası Çin səddində əks-səda topladı. Xarici mətbuatda tamaşamız "Altın Çiçək" olaraq adlandırılmışdı; dünya mətbuatında bu tamaşa barədə müxtəlif dillərdə 179 məqalə yazılmışdır.

Tamaşadan sonra Türkiyənin mədəniyyət naziri Ərtuğrul Günay məni yanına dəvət etdi və yeni layihə haqqında dedi: "Hocam hazırlaşın, "Koroğlu" tamaşası Birinci İstanbul Dünya Opera Festivalının finalında göstəriləcəkdir. Tamaşa ilə bağlı bütün məsələləri şəxsən mənimlə müzakirə edəcəksiniz. Siz həmən çalışmalara başlayın". Beləliklə, ikinci Beynəlxalq "Koroğlu" layihəsi ilə yola çıxdım. Üzeyir bəyin şah əsərini yenidən Astana Operasında səhnəyə qoyacağıma qərar verdik. Bir ay içində tamaşa hazır oldu və sənətçilərlə birlikdə İstanbula gəldik.

İstanbul Haliç Kongre Sarayında beş min yer vardır. Amma tamaşa günü beş min altı yüz insan tamaşanı ayaq üstə alqışladılar. Ogünkü tamaşanı, həqiqətən, görmək lazım idi. Doğrudur, Amerikada "Arşın mal alan" operasını 1918-ci ildə salonda çəkmişdilər. Amma "Koroğlu" operası ilk dəfə dörd türk dövlətlərin mərkəzi opera səhnələrində və Avropa torpaqlarında göstərildi. Bu, tarixi bir zəfərdir. Bu, Üzeyir Hacıbəyov musiqisinin dünya zəferidir. Milli musiqimizin dünyadakı zəfəridir.

Bakı tamaşası ərəfəsində, 2009-cu il sentyabr ayının 17-də Azərbaycan Prezidenti cənab İlham Əliyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinovu qəbul etmişdi. Ölkə başçısı görüş zamanı Beynəlxalq "Koroğlu" layihəsini yüksək qiymətləndirmiş və demişdi: "...Bu layihə xalqlarımızın bir-birinə yaxınlaşmasına, ölkələr arasında mədəni əlaqələrin daha da güclənməsi naminə böyük əhəmiyyət kəsb edir" ("TÜRKSOY" jurnalı, 2010, N-30, s. 4, Ankara).

Üzeyir Hacıbəylinin səhnə yaradıcılığı, sənət və ədəbi irsi, müasir musiqi mədəniyyətinin təbliğində də önəmlidir. Onun Şərq ölkələrinin musuqi mədəniyyətinin inkişafındakı tarixi xidmətləri əvəzsizdir. Özbəkistan, Qazaxıstan, Tatarıstan, Qırğızıstan, Türkmənistan, hətta Türkiyənin də milli musiqisinin müasir musiqi ilə sintezində əməyi böyük olmuşdur. Bu saydığım ölkələrdə operetta və opera janrının yaranması da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır.



Üzeyir bəyin anadan olmasının 130-cu ili ərəfəsində ölkəmizin Ankaradakısəfiri Faiq Bağırovun və bu sətirlərin müəllifinin birgə səyləri sayəsində Üzeyir Hacıbəylinin iki operası sənət tariximizdə ilk dəfə Türkiyə Dövlət Operalarının repertuarına salınmışdır. Bu il dekabr ayının 17-də "Koroğlu"nun ilk tamaşası Mərsin Operasında, 2016-cı il aprel ayının 20-də isə "Leyli və Məcnun" operasının ilk tamaşası olacaqdır. Hər iki Beynəlxalq layihələrdə yenidən Üzeyir bəyin operalarını səhnəyə qoymamın sevincini və həyəcanını yaşayıram.

Üzeyir Hacıbəyli sənətini dünyada təbliğ etməkdən çox-çox qururluyam və Üzeyir bəyin opera və operettalarını dünya səhnələrində tamaşaya qoymaqla özümü xoşbəxt hiss edirəm.

**Prof. Dr. Əflatun NEMƏTZADƏ,**
**Əməkdar İncəsənət Xadimi,**
**rejissor, yazıçı.**